*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.319-326*

https://doi.org/10.62837/2024.10.319

**MƏRYƏM ÜMMAN**
**Gəncə şəhəri, Ə.Cavad adına 2-li tam orta məktəb**
**Email: m.allahmanli@mail.ru**

# MƏHƏMMƏD FÜZULİNİN "MƏTLƏÜL ETİQAD" ƏSƏRİNİN ELMİ-FƏLSƏFİ MƏZMUNU

**Xülasə:** Azərbaycan ədəbiyyatının orta əsrlərdə yetişdirdiyi ən böyük simalardan olan M.Füzuli yaradıcılığı bütün parametrlərdə zənginliyi, yaradıcı düşüncəsinin polifoniyasını əks etdirə bilmək imkanları ilə spesifiklik qazanır. Yüz illərdi ki, yazılıb-yozulan, fərqli yanaşmaların aktual mövzusu olan ədəbi irsi həmişə əlavə təhlillərə, sözə ehtiyac doğurmuş və bundan sonra da belə olması ilə elmi-nəzəri fikrin marağındadır. "Mətləül etiqad" əsəri bu sırada ayrıca bir zənginliyi sərgiləyir və ədibin yaradıcılığının zənginlik baxımından digər bir qatının açımı üçün əsas olur. Ərəbcə yazılmış fəlsəfi traktat müxtəlif aspektləri ilə şairin elmi-nəzəri dünyagörüşünü, müşahidələrini və həyata baxışını, müxtəlif zaman kəsiklərində yaşamış filosofların apardığı təhlillərin davamı və həm də özünəməxsusluq səviyyəsində örnəyi olmanı diqqət önünə gətirir.

Zəngin yaradıcılıq yolu keçən M.Füzuli ədəbi irsi özünəqədərki və özündən sonrakı bütün dövrlərin sənət abidələri sırasında bir mayak kimi özünü nümayiş etdirir. "Artıran söz qədrini sidq ilə qədrin artırar" düşüncəsindən çıxış edən sənətkar "kim nə miqdar olsa əhlin eylər ol miqdar söz" deməklə sənət möhtəşəmliyinin konseptini cızır. Azərbaycanca və farsca "Divanı", qəsidələrindən ibarət "Divanı" (Azərbaycanca, farsca, ərəbcə), "Leyli və Məcnun", "Bəngü Badə", "Meyvələrin söhbəti", ""Həft cam" poemaları, dövrün və mühitin ümumi problemlərinə hesablanmış məktubları, "Rindü-zahid", "Səhhət və Mərəz" adlı farsca yazılmış nəsr əsərləri, "Hədiqətüs-süəda"sı (türkcə yazılıb), "Hədisi ərbəin" tərcüməsi bütün mahiyyəti ilə bir istiqamətdə şairin bədii istedadını ehtiva etmək imkanları ilə faktlaşırsa, digər kontekstdə elmi-fəlsəfi dünyagörüşünü əhatələmək imkanı və gücü ilə özünü nümayiş etdirir.

**Açar sözlər**. XVI əsr Azərbaycan ədəbiyyatı, M.Füzuli, "Mətləül etiqad", fəlsəfi traktat, nəsr, elm, bilik və s.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 319-326*

# SCIENTIFIC AND PHILOSOPHICAL CONTENT OF MOHAMMED FAZULI'S WORK "MATLAUL ETIGAD"

**Maryam Umman**

**Summary**

M. Fuzuli, one of the greatest figures of Azerbaijani literature in the Middle Ages, gained specificity with the ability to reflect the richness and polyphony of his creative thought in all parameters. Literary heritage, which has been written and written for hundreds of years, which is the actual subject of different approaches, has always caused the need for additional analysis and speech, and is still in the interest of the scientific-theoretical opinion. At the same time, the work "Matlaul etigad" exhibits a separate richness and becomes the basis for the opening of another layer of the writer's creativity in terms of richness. The philosophical treatise written in Arabic, with its various aspects, brings to the fore the poet's scientific-theoretical outlook, observations and outlook on life, the continuation of the analyzes conducted by philosophers who lived in different periods of time, and also being an example at the level of uniqueness.

M. Fuzuli's literary heritage, which has passed a rich creative path, shows itself as a beacon among the art monuments of all periods before and after him. The artist, who comes from the idea that "the word that increases the value, increases the value with respect", draws the concept of artistic magnificence by saying "no matter what the amount, be the people of the people, be the amount of words". "Divani" in Azerbaijani and Persian, "Divani" consisting of odes (Azerbaijani, Persian, Arabic), "Leyli and Macnun", "Bangu Bada", "Meyvalarin sohbati", "Haft cam" poems, letters calculated on the general problems of the time and environment , prose works written in Persian called "Rindu-zahid", "Sahhat and Maraz", "Hadiqatus-suada" (in Turkish written), if the translation of "Hadisi arbain" in its essence is realized in one direction with the possibility of containing the artistic talent of the poet, in the other context it shows itself with the possibility and power of covering the scientific and philosophical worldview.

**Keywords.** 16th century Azerbaijani literature, M. Fuzuli, "Matlaul etigad", philosophical treatise, prose, science, knowledge, etc.

# НАУЧНОЕ И ФИЛОСОФСКОЕ СОДЕРЖАНИЕ РАБОТЫ МУХАММЕДА ФИЗУЛИ «МАТЛАУЛ ЭТИГАД»

**Марьям Умман**

**Резюме:** М.Физули, один из крупнейших деятелей азербайджанской литературы Средневековья, обрел конкретность благодаря умению отразить богатство и полифонию своей творческой мысли по всем параметрам. Литературное наследие, которое пишется и пишется на протяжении сотен лет и

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.319-326*

является актуальным предметом различных подходов, всегда вызывало необходимость дополнительного анализа и высказываний и до сих пор находится в интересе научно-теоретического взгляда. В то же время произведение «Матлаул этигад» обнаруживает отдельное богатство и становится основой для раскрытия другого по богатству пласта творчества писателя. Философский трактат, написанный на арабском языке, в различных его аспектах выдвигает на первый план научно-теоретическое мировоззрение поэта, наблюдения и взгляды на жизнь, являясь продолжением анализов, проведенных философами, жившими в разные периоды времени, а также являясь примером на уровне уникальности.

Литературное наследие М. Физули, прошедшее богатый творческий путь, выступает маяком среди памятников искусства всех периодов до и после него. Художник, исходящий из идеи, что «слово, которое увеличивает ценность, увеличивает ценность уважения», рисует концепцию художественного великолепия, говоря: «Независимо от суммы, будьте людьми из людей, будьте количеством слова». «Диван» на азербайджанском и персидском языках, «Диван», состоящий из од (азербайджанских, персидских, арабских), «Лейли и Меджнун», «Бангю Баде», «Мейваларин сохбати», стихотворений «Хафт Джам», букв, рассчитанных на общие проблемы времени и окружающей среды, прозаические произведения, написанные на персидском языке под названием «Ринду-захид», «Саххат и Мараз», «Хадикатус-суада» (на турецком языке). написан), если перевод «Хадиси аль-Арбаин» по своей сути реализуется в одном направлении с возможностью содержания художественного таланта поэта, то в другом контексте он проявляет себя возможностью и силой освещения научной и философское мировоззрение.

**Ключевые слова.** Азербайджанская литература XVI века, М. Физули, «Матлаул этигад», философский трактат, проза, наука, знание и др.

**XVI əsr Azərbaycan ədəbiyyatı və M.Füzuli**. XVI əsr Azərbaycan ədəbiyyatının zənginliyi M.Füzuli, Ş.İ.Xətai və Qurbani timsalında olanlarla bir əlçatmazlıq və milli oyanışın özgürlük konseptini açıqlayır. S.Mümtazın, B.Çobanzadənin, M.F.Köprülüzadənin, İ.Hikmətin, F.Köçərlinin, H.Araslının, M.Quliyevin, M.C.Cəfərovun, Ə.Səfərlinin və başqalarının apardığı təhlillər və gəldiyi qənaətlər bütün mahiyyəti ilə bədii-estetik, ictimai-siyasi, dini-fəlsəfi axarın qatlarını əhatələyə bilmək gücü ilə spesifikləşir. Aparılan təhlillər təkcə on altıncı yüzillik səviyyəsində olanlarla da məhdudlaşmır, bütün konturları ilə əvvəlki zamanlardan gələnlərin dinamik mənzərəsini açıqlayır. “Mətləül etiqad” əsəri bu zənginliyin örnəyi olaraq bir başqa qatı, M.Füzuli timsalında gedən proseslərin geneologiyasını açıqlayır. M.C.Cəfərov “Füzuli düşünür” monoqrafiyasında açıq şəkildə vurğulayır ki, “Füzuli son dərəcədə zəmanəsinə həssas münasibət bəsləyən,

əsrini bütün mürəkkəbliyi, ziddiyyətləri ilə dərk etməyə çalışan mütəfəkkir şair olmuşdur; o həm də hadisələrə kənardan baxan bir seyrçi, müşahidəçi kimi deyil, həqiqi bir şair, alim ehtirası ilə mənsub olduğu cəmiyyətin varlığını, maddi-mənəvi əlaqələrini hərtərəfli aydınlaşdırmaq istəmişdir. Bu məqsədlə zidd fikir cərəyanlarına, fəlsəfi, dini görüşlərə, təriqət və məzhəblərə baş vurmuş, onları saf-çürük etmiş, orta əsrlərdə cəmiyyət həyatının və insan taleyinin çətin suallarına cavab verməyə səy göstərmişdir" **(4, 3-4).** M.Füzulinin "Mətləül etiqad" əsəri məzmun xətləri, fəlsəfi mahiyyəti ilə poeziyasında, nəsrində olanların davamı və bir hissəsi olaraq özünü göstərir.

Rükn və bablar şəklində qurulan "Mətləül etiqad" əsəri ayrı-ayrı başlıqlarda (məsələn, "Elm biliyi və bilik elmi haqqında beş babdan ibarətdir") verdiyi məzmin xətləri ilə təfərrüata varmaq, mahiyyəti açmaq məqsədi daşıyır. "Həmin iki məsələnin mahiyyəti haqqındadır", "Biliyin (mərifətin) vacibliyi haqqındadır", "Biliyin (mərifətin) növləri haqqındadır", "Biliyin yolları (üsulları) haqqındadır" bablarında (hissələrində) verilən bilgilər məzmun zənginliyində bir özünəməxsusluğa dayanır. Daha doğrusu, şairin qəzəl, qəsidə, rübai, müxəmməs, məsnəvi, nəsr nümunələrində olan əhatəliliyin bir hissəsi olaraq tamamlayıcı funksiyanı yerinə yetirir. Əlbəttə burada rəngarənglik və müxtəliflik baxımından kifayət qədər dərin mətləblərin özünə yer alınması və təhlilə gətirilməsi vardır. Elmlə əlaqədar yazılmış rüknün birinci babında deyilir: "Kəşf əhli olan bəzi tədqiqatçıların dediyinə görə, bilik (mərifət) elmdən yüksəkdir, çünki onların fikrincə, ilahiyyat haqqında məsələlər və islahatlara aid hər nə varsa elmdir, zat və sifətlərə aid olanlar isə bilikdir (mərifətdir). Məsələnin belə qoyuluşu həqiqətin əksinədir; çünki Tanrıya öz kəlamında (Quranda) bilik deyil, elm sifəti istinad edilir və beləliklə elm bilikdən yüksəkdir! **(6, 83)**. Göründüyü kimi, elm və bilik müstəvisində şairin fəlsəfi düşüncələri özündən əvvəlkilərin, məsələn, X.Təbrizinin, N.Gəncəvinin, M.Əvhədinin, M.Şəbustərinin, Ə.Təbrizinin, Hamidinin və başqalarının yaradıcılığında olanların davamı və orijinal mühakimələrin tipoloji aspektdə təhlilə gətirilməsi ilə spesifikləşir.

Elm və bilik kontekstində yürüdülən mühakimələr daha dərin qatların açılışına diqqəti yönəldir. Sufilərin, təriqət yolçularının mərifət əhli olma ilə bağlı mühakimələr Tanrı kəlamı (Quran) timsalında müqayisələrə əsas olur. "Kitabi-Dədə Qorqud"da "yazılıb-düzülüb göydən endi Tanrı elmi Quran görklü" **(7, 16)** düşüncəsi bütün tərəfləri ilə M.Füzuliyə gələn yolun dinamikasını sərgiləyir. M.Füzuli bilik üzərində müşahidələr aparır və onun spesifikasına dayananları dünya işlərinə münasibət, eləcə də din, etiqad, ibadət timsalında əsaslı təhlillərə diqqət yetirir və onun mahiyyətinə müqayisələr əsasında yanaşmaqla açıqlamağa səy göstərir. "Bilik iki növdür.

Birincisi, dünya işlərinə, məsələn, yaşayış vəsaitinə aiddir.

İkincisi, din işlərinə aiddir ki, bu da iki növdür:

Birincisi, etiqadlara, ikincisi isə ibadətlərə aiddir.

Etiqadlar da iki növdür: birincisi, vacibə (Allaha), ikincisi isə mümkünə (yaranmışlara) aiddir. Allaha aid olan etiqadlar da iki növdür: birincisi, onun zatına, ikincisi, sifətlərinə aiddir.

Başqa bölgüyə görə, bilik altı növdür; çünki bilik mövcudiyyəti insanın şüurlu hərəkətindən ya asılı olan və ya asılı olmayan əşyalara aiddir.

Birincisi əməli, ikincisi isə nəzəri (bilik)dir" **(6, 85)**. Klassiklər deyirdi ki, "bilik bil, səadət yolunu tap" və M.Füzuli də müxtəlif aspektlərdə yanaşmaları ilə rükn və bablar səviyyəsində özünün dini və dünyəvi mühakimələrini görüb müşahidə etdikləri baxımından təhlilə gətirir. Yuxarıdakı mətndəki biliyin iki növə ayrılması dünya işlərinə aid olanlar və din işlərinə aid olanlar səviyyəsində açıqlanma məqsədi daşıyır. Qədim insanlar ilkin təsəvvürdə olanlardan, ibtidai düşüncədən gələnlərdən bu yana həyatı öyrənmək məqsədi və cəhdləri ilə diqqət önünə gəlir və müxtəlif nəzəriyyələr məsələnin mahiyyətini açıqlamaq məqsədində tədrici prosesdə bilgilərə həssaslıq göstərmişlər. Etiqadlar və ibadətlər əsasında sərgilənən tərəflər isə dinə gələn yolun animizm, totemizm, antropomorfizm, fetişizm səviyyəsində olanlardan mifə gələn yolun axarını aydınlaşdırır.

Bioloji nəzəriyyə, əmək nəzəriyyəsi, dini nəzəriyyə və s. timsalında geniş və həm də təfərrüatlı bilgiləri açıqlayan və ona işıq tutmaq funksiyası ilə çıxış edən məsələlər bilik və elm axarında əldə olunan zənginliyin spesifikasını açıqlayır. M.Füzuli də bunlara rasional və irrasional baxışları ilə öz mövqeyini "Mətləül-etiqad" əsərində bütün tərəfləri ilə aydınlaşdırmağa çalışır. Dünya işləri baxımından olanlar görkəmli ədibin tarix və zaman haqqında təsəvvürlərini əks etdirmək məqsədi daşıyır. İctimai-siyasi mühit timsalında dünyanın o başından Füzuli dövrünə gələnlər miqyasında olanların ümumiləşdirilməsi özünə yer alır. M.Füzuli "Qəsidələr" divanına yazdığı "Dibaçə"də maraqlı şəkildə deyir: "Allahın səlavatı ona və onun əhli-beytinə, onun qanunlarını və ehkamlarını hifz edən və kəlamının məzmunlarını nəql edən əshabinə olsun.

Bundan sonra bu saf etiqadlı qul, nakam Füzuli öz əhvalını müxtəsərcə belə şərh edir və bu münvalla söz telinin düyününü açır. Elə ki, mən əşyanın keyfiyyətini təhqiq üçün fərasət gözünü açdım, hikmət əsərlərinin tamaşası çölünə təfəkkür qədəmi qoydum, aləm sədəfində insandan qiymətli bir gövhər görmədim və insan gövhərində isə sözdən şərəfli cövhər görmədim" **(5, 26)**. Bütün bunlar şairin fəlsəfi düşüncələrini, dini-ideoloji və fəlsəfi konsepsiyasını əhatələyir, "Mətləül etiqad"a gələn yolun polifoniyasını ayrı-ayrı əsərləri, lirikası, poemaları, alleqorik örnəkləri, məktubları və s. səviyyəsində aydınlaşdırır. Qəstimonlu Lətifi, Sam Mirzə, Əhdi Bağdadi, Sadiq bəy Əfşar, Riyazi kimi ədiblərin təzkirələrində, M.Ə.Recaizadə, Məhəmməd Cəlal, Əbuziya Tofiq, M.F.Köprülü, Ə.Gölpinarlı, H.Mazıoğlu, Hammer, Hartman, Gibb, A.Krımski, B.Çobanzadə, Y.E.Bertels, A.Sur, F.Köçərli,

İ.Hikmət, H.Araslı, M.Cəlal, M.Quluzadə, S.Əliyev və başqalarının araşdırmalarında böyük şairin əsərlərinin fəlsəfi aspekti bir istiqamət olaraq qabardılmışdır.

**"Mətləül etiqad" əsərinin rükn və bab informasiyası**. İyirminci yüzilliyin əvvəllərində F.Köçərli türk şairlərinin babası kimi xarakterizə edərək onun şeir dühasının polifoniyasını müxtəlif səviyyələrdə aydınlaşdırmağa həssaslıq göstərməklə elmi-nəzəri fikrin diqqətini bura yönləndirməyə cəhd göstərir. "Şairi-Museyi-kəlam" deyə özü haqqında fikirlər söyləyən sənətkar "mənim könlüm sədəfdir, sözlərimdir dürrü qəltani" deməklə düşüncə və sənət sahəsində nələrə imza atdığını açıqlayır. ""M.Füzuli təkcə Azərbaycanın deyil, ümumiyyətlə, Şərq ədəbiyyatının ən məşhur söz ustadlarından biridir. Ümumdünya poetik fikrinin tarixində onun ayrıca mövqeyi vardır. Özünün dediyi kimi bütün ülum və fünunu özündə toplamış bir insan olmaq üçün çalışan və buna nail olan, istər əqli, istərsə də nəqli elmləri mənimsəməkdə yüksək mövqeyə çatan şair belə bir fəzilətinə görə "Mövlana" ləqəbi almışdır" **(3, 452)**. Şairin bütünlükdə yaradıcılığı lirika, poema, məktub, tərcümə, fəlsəfi traktat səviyyəsində bu ucalığın açımına xidmət edir. İstedadı o qədər parlaq və əsrarəngiz olmuşdur ki, onun əlini uzatdığı bütün məqamlarda əlinə zər, heç kəslə müqayisə olunmayacaq yozumu axıra qədər mümkün olmayan gövhər gəlmişdir.

"Mətləül etiqad" əsəri rükn və bablar səviyyəsində bu zənginliyi ifadənin əvəzsiz olan bir örnəyidir. Birinci rükn "Elm biliyi və bilik elmi haqqında olub dörd babdan ibarətdir" başlığı altındakı hissələr "Həmin iki məsələnin mahiyyəti haqqındadır", "Biliyin (mərifətin) vacibliyi haqqındadır", "Biliyin (mərifətin növləri haqqındadır", "Biliyin yolları (üsulları) haqqındadır", ikinci rükn "Aləmin əhvalını bilmək haqqındadır" və bablar ("Aləmin mənşəyi haqqındadır", "Aləmin cüzlərini bilmək haqqındadır", "Dünya əhlinə aid bilik haqqındadır", "Cinin varlığı haqqındadır"), üçüncü rükn "Vacibə (Tanrıya) aid bilik və bu biliyə aid (məsələlər) haqqındadır" və bablar ("Tantıya aid biliyi axtaran adamın qabaqcadan bilməli olduğu əsaslardan ibarət məsələlər haqqındadır", "Dövr ilə təsəlsülün yanlışlığının isbatı haqqındadır", "Vacibin varlığını isbat etmək haqqındadır", "Tanrının zatına aid bilik haqqındadır", "Sifətlərə (Tanrının sifətlərinə) aiddir", "Tanrının işləri haqqındadır", "Yaxşılıq və pislik haqqındadır", "Xeyir və şər haqqındadır", "Tanrıya vacib olanlar haqqındadır"), dördüncü rükn "Peyğəmbərlik və onunla əlaqədar (məsələlər) haqqında biliyə aiddir" başlığı altında ayrı-ayrı bablarda ("İnsanların peyğəmbərlərə olan ehtiyacı haqqındadır", "İsmət (peyğəmbərin günahsızlığı) haqqındadır", "Bizim peyğəmbərin peyğəmbərliyi haqqındadır", "Onun (Məhəmmədin) başqa peyğəmbərlərdən üstünlüyü haqqındadır", "İmamət haqqındadır", "Məhşər (hesab çəkilən yer və ya gün) haqqındadır", "Ruhun ölümdən sonra və qiyamətdən əvvəlki vəziyyəti və onun ləzzət və ələmə çatması haqqında biliyə aiddir", "Mizan (tərəzi) Sirat (körpü) və Haqq-hesab haqqındadır") əksini tapır. Kifayət qədər zənginliyi, insan düşüncəsinin ibtidai zamanından günümüzə

qədərki təsəvvürləri və həyat pulsunu öz içinə almaq gücü ilə diqqət önünə gələn bu başlıqlar və onun altında aparılan təhlillər inam, etiqad, əqli və nəqli elmlər, fəzilət anlamında bir mükəmməlliyi, dünya oğlunun sirr dolu iç aləminin təlatüm və inanclarını sıralayır. H.Araslı yazır: "Bu əsərdə sənətkar insan sözünün dərin mənası önündə heyrətlənir. İnsan həyatında dilin əvəzsiz bir nemət olduğunu, sözün insan mənəviyyatını ifadə vasitəsi olduğunu tərənnüm edən şair sənətkarlara müraciət edərək söz gözəlini mərifət libasından çılpaq etməməyə, şeirdə şəkli xüsusiyyətlərə uyaraq mənanı unutmamağa çağırır. O, insan vücudunun sirlər xəzinəsi olduğunu göstərib onu öyrənməyin lazım gəldiyini söylədiyi kimi, bilici insanların məğrur olmayıb, bütün elmləri, sirləri öyrənmək sahəsində hələ az iş gördüyünü də qeyd edir" **(1, 16)**. Göründüyü kimi, insan sözünün kəsb etdiyi məna və onun alt qatında özünə yer almış mahiyyət haqqında M.Füzuli düşüncələrini təhlilə gətirən ədib təkcə hansısa lirik şeirindən çıxış etməklə kifayətlənmir və daha dərin mətləbləri üzə çıxarmaq istəyi ilə xalq təsəvvüründə özünə yer almış kutsallıqlara qədər bir həssaslıq göstərir.

"Mətləül etiqad" əsəri məsələyə fəlsəfi aspektdən yanaşmaqla daha dərin mətləbləri bilik və elm axarında əhatələmək məqsədini aşkarlamaq istəyinə köklənir. "Füzulinin ərəb dilində yazmış olduğu "Mətləül etiqad" əsərində sırf fəlsəfi məsələlər: bilik, elm, onların istər din, istərsə də ayrı-ayrı fəlsəfi məktəblər tərəfindən qiymətləndirilməsi, dünyanın yaranması, ilk yaradılış və yunan filosoflarının bununla bağlı görüşləri, Allahın varlığı, onun sifətləri, peyğəmbərlik, bu barədə Şərq və Qərb filosoflarının mülahizələri, xeyir və şər problemi, məhşər, sual-cavab, haqq-hesab, dünyanın axırı, insanların günah və savablarının ölçülməsi ilə əlaqədar görüşlər çox müxtəsər şəkildə öz əksini tapmışdır" **(2, 4)**. Ümumiyyətlə, əmək və zəhmətin xilqətin mahiyyətində olmasından çıxış edən ədib onların hissi-emosional, dini-fəlsəfi qatını da eyni əsasda bədii mətnə gətirir və müxtəlif aspektlərdə ayrı-ayrı bab (hissə) altında aydınlaşdırmağa həssaslıq göstərir. "Özünəqədərki Yaxın və orta Şərq xalqlarının müxtəlif dillərdə yaratdığı zəngin mədəniyyəti diqqətlə öyrənən, mühitini həmin mədəniyyətin ziyası altında müşahidə edən sənətkar zəngin və çoxcəhətli bir irs yaratmışdır" **(8, 409)**. "Mətləül etiqad" əsəri ədibin dünyagörüşünü, həyata baxışını, dini və fəlsəfi düşüncələrini, bilik və elm səviyyəsində təsəvvürlərini aydınlaşdırmaq üçün ən mükəmməl qaynaqdır.

**Nəticə**. M.Füzuli yaradıcılığının mahiyyətini inam və etiqadlardan əqli və nəqli biliklərə qədər bir çeşidliliklə əhatələyən "Mətləül etiqad" əsəri mövzu və mündəricəsi ilə ayrıca bir mədəniyyət hadisəsidir. Fəlsəfi traktatın mahiyyətinin açılması ilə bağlı müxtəlif fikir və mülahizələr söylənmişdir. On altıncı yüzillik timsalında Füzuliyə qədər olanların məzmununu, gəlinən yolun dinamikasını və əldə olunan bilgilərin çoxtərəfliliyini əhatələmək kimi bir təsəvvürə yüklənir. Burada ilkin yaranışdan üzü bəri olan təsəvvürlər inam və etiqadlar, həyatı dərk və ilkin müşahidələr səviyyəsində olanları təqdimə köklənir. Dinə qədər gəlinən yol və dinin

yarandığı dövrün təsəvvürləri müxtəlif başlıqlar altında (məsələn, "Məhşər (hesab çəkilən yer və ya gün) haqqındadır", "Ruhun ölümdən sonra və qiyamətdən əvvəlki vəziyyəti və onun ləzzət və ələmə çatması haqqında biliyə aiddir", "Mizan (tərəzi) Sirat (körpü) və Haqq-hesab haqqındadır") mətndə ifadəsini tapır. Bütün bunlar M.Füzuli yaradıcılığının fəlsəfi mahiyyətində olanları əhatələmək məramı ilə əvəzsizlik qazanır və daha geniş aspektdə araşdırmaların aparılmasını zəruriləşdirir.

## ƏDƏBİYYAT

1. Araslı H. Füzulinin qəsidələri. Məhəmməd Füzuli. Əsərləri. Beş cilddə, IV c., Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, 1961 s. 5-21
2. Araslı H. Füzuli əsərlərinin beşinci cildi. Füzuli M.Əsərləri. Altı cilddə, V c., Bakı: Şərq-Qərb, 2005, s. 4-8
3. Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Bakı: Elm və təhsil, 2014, 760 s.
4. Cəfərov M.C. Füzuli düşünür. Bakı: Azərbaycan uşaq və gənclər nəşriyyatı, 1959, 236 s.
5. Füzuli M. Əsərləri. Beş cilddə, IV c., Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, 1961, 392 s.
6. Füzuli M. Əsərləri. Altı cilddə, V c., Bakı: Şərq-Qərb, 2005, 224 s.
7. Kitabi-Dədə Qorqud. Bakı: Gənclik, 1978, 184 s.
8. Səfərli Ə., Yusifli X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Ozan, 1998, 632 s.

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
***Rəyçi Mahmud Allahmanlı,***
***filologiya elmləri doktoru, professor***
**tərəfindən çapa tövsiyə olunmuşdur**